UOT 336.7

Rəşad Arzuman oğlu MUSTAFAYEV
Doktorant, Azərbaycan Kooperasiya Universiteti
Email: resad_320_m@mail.ru
10.30546/4.71.73001.2024.09

İQTİSADİ İNKİŞAFIN TƏNZİMLƏNMƏSİNDƏ MALİYYƏ METODLARINDAN İSTİFADƏNİN ZƏRURİLİYİ

Xülasə

Tədqiqatın məqsədi - yeni reallıqlar şəraitində iqtisadiyyatın müxtəlif sahələrinin inkişafında tarazlığın təmin edilməsi dövlətin iqtisadi siyasətinin prioritetlərindən hesab edilir. Bu məqsədin reallaşdırılmasında maliyyə tənzimlənməsi xüsusi əhəmiyyət kəsb edir.

Tədqiqatın metodologiyası - Maliyyə tənzimlənməsi mexanizmləri büdcə, vergi, pul-kredit və s. tənzimlənməsinin üsulları, vasitələri və alətlərini nzərdə tutur. Dövlətin iqtisadiyyatın inkişafını tənzimləmək məqsədilə proseslərdə iştirakı, ilk növbədə iqtisadi stimulların formalaşmasına yönəlir.

Tədqiqatın tətbiqi əhəmiyyəti - Məhz maliyyə tənzimləməsindən istifadə hesabına həm də istehsalın strukturunun təkmilləşdirilməsi üzrə imkanlar müəyyən edilir. Bazar iqtisadiyyatında iqtisadiyyatın dövlət tənzimlənməsi beynəlxalq təcrübəyə əsasən müxtəlif forma və metodlar vasitəsilə həyata keçirilir. Bir qayda olaraq, metod və formaların sayı, müxtəlifliyi ölkənin iqtisadi sosial vəziyyətinə, coğrafi iqlim şəraitinə, təbii ehtiyatlarına, adət və ənənəsinə uyğunlaşdırılaraq fərqli nisbətdə həyata keçirilir.

Tədqiqatın nəticələri – Bazar münasibətləri şəraitində iqtisadiyyatın dövlət tənzimlənməsi probleminin tədqiqi bu sahə ilə bağlı nəzəri və praktiki əhəmiyyətə malik olan mühüm nəticələr əldə etməyə imkan verir. Beləliklə, maliyyə üsullarından geniş istifadə ictimai istehsalın strukturunun dövlətin tələb etdiyi istiqamətdə dəyişdirilməsi üçün potensial imkanlar yaradır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - İqtisadiyyatın dövlət tənzimlənməsinin inzibati vasitə və alətləri əlavə maddi stimulla, maliyyə təminatı ilə əlaqədar deyildir. Onlar dövlət hakimiyyətinin gücünə əsaslanırlar - qabağagetmə, icazəvermə, məcburetmə səlahiyyətlərini əhatə edirlər. Bazar iqtisadiyyatında dövlət tənzimlənməsinin dolayı metodları bazarda oyun qaydalarını müəyyən etməklə təsərrüfat fəaliyyəti ilə məşğul olan subyektlərin maraqlarına təsir göstərir.

Açar sözlər: iqtisadi inkişaf, tənzimləmə, pul-kredit, büdcə, vergi, gömrük, maliyyə.

Giriş

Bazar iqtisadiyyatında iqtisadiyyatın dövlət tənzimlənməsi beynəlxalq təcrübəyə əsasən müxtəlif forma və metodlar vasitəsilə həyata keçirilir. Bir qayda olaraq, metod və formaların sayı, müxtəlifliyi ölkənin iqtisadi sosial vəziyyətinə, coğrafi iqlim şəraitinə, təbii ehtiyatlarına, adət və ənənəsinə uyğunlaşdırılaraq fərqli nisbətdə həyata keçirilir. İqtisadiyyatın tənzimlənməsində istifadə olunan metodların digər təsnifləşdirilməsi onların sosial-iqtisadi proseslərə təsir səviyyəsi və dərəcəsi ilə əlaqədar aparılır. Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq dövlət gələcəkdə sosial iqtisadi inkişafın vəziyyətini əks etdirən proqnozlar işləyib hazırlayır ki, onların çoxlu variantlarda hazırlanmasının müsbət cəhəti ondan ibarətdir ki, müəyyən vəziyyətdə optimal olunan seçilsin. Proqnozlar əsasında dövlət siyasəti yalnız inkişaf prespektivlərini deyil, həmçinin müəssisələrə, firmalara dövlətin gələcəkdə həyata keçirəcəyi tədbirləri göstərməyə imkan verir.Qloballaşma prosesi ilə əlaqədar olaraq dünya iqtisadiyyatının texnoloji strukturunun dəyişməsi, informasiya cəmiyyətinin formalaşması və yeni texnologiyaların tətbiqi, bazarların və ölkələrin iqtisadi inteqrasiya subyektlərinin transformasiyası nəticə etibarilə ölkənin maliyyə-iqtisadi inkişafını hədəfləyir. Qeyd edilənlər iqtisadi inkişafın yeni reallıqları kontekstində sahələrarası tarazlığın qorunması baxımından daha effektiv pul-kredit və maliyyə tənzimlənməsinin yeni mexanizmlərinin hazırlanmasını və tətbiqini tələb edir. Balanslaşdırılmış siyasət sayəsində müsbət struktur dəyişiklik-

lərinin həyata keçirilməsi üçün zəruri maliyyə şərtləri yaranır. İqtisadiyyatın maliyyə tənzimlənməsi istehsalın strukturuna əhəmiyyətli dərəcədə təsir göstərir. İqtisadiyyatın maliyyə tənzimlənməsi məqsədi ilə dövlətin müdaxiləsinə ehtiyac cəmiyyətin tələbatının ödənilməsi ilə bağlı problemlərin həllini - iqtisadi inkişafın prioritet sahələrinin dəstəklənməsini, struktur dəyişikliklərinin təmin edilməsini, istehsal və sosial infrastrukturun təkmilləşdirilməsini və genişləndirilməsini və s. nəzərdə tutur [Капканщиков, Сергей Геннадьевич., 2013].

Maliyyə və pul-kredit tənzimlənməsinin üsulları.

Maliyyə və pul-kredit tənzimlənməsinin üsulları, vasitələri və alətləri dövlətin iqtisadiyyata müdaxiləsi ilə bağlı bir çox problemlərin həllinə yönəlir. Ona görə iqtisadiyyatın maliyyə-pul tənzimlənməsinin mövcud növ və üsullarının ümumiləşdirilməsi və onların həyata keçirilməsi üçün yeni şərtlərin müəyyən edilməsi vacib məsələlərdən biri kimi özünü göstərir.

Maliyyə tənzimlənməsinin pul-kredit mexanizmi pul-kredit münasibətləri sistemində iqtisadiyyatın sabitliyini, o cümlədən məşğulluğun təmin edilməsini, inflyasiyanın aşağı salınmasını, qiymət sabitliyini, pul sisteminin səmərəliliyini təmin etməyə yönəldilir və dövlətin xüsusi üsul və vasitələrlə həyata keçirdiyi fəaliyyətləri əhatə edir [Н.В.Уколова, Л. Н. Алайкина, Н. А. Новикова, 2015.] Məqsədlərindən asılı olaraq pul siyasəti strateji və cari növə bölünür. Strateji növ dövlətin iqtisadi siyasətini nəzərə alaraq müəyyən dövr üçün əsas istiqamətləri müəyyən edir. Cari növ isə daha konkret və əlçatan məqsədlərə uyğun olaraq həyata keçirilir.

Fiskal siyasətin dövlətin maliyyə resurslarından istifadəsinin əsas istiqamətləri

Müasir fiskal siyasət dövlətin maliyyə resurslarından istifadəsinin əsas istiqamətlərini, maliyyələşdirmə üsullarını və dövlət büdcəsinin doldurulması mənbələrini əhatə edir. Bu baxımdan dövlət büdcəsinin təhlili göstərir ki, son 5 ildə, yəni 2018-ci ilə nisbətən 2022-ci ildə büdcə gəlirləri 29,7% artmışdır. O cümlədən fiziki şəxslərin gəlir vergisində 49,1%, hüquqi şəxslərin mənfəət (gəlir) vergisində 2,1 dəfə, əmlak vergisində 29,6%, əlavə dəyər vergisində 33,4%, aksizdə 75,2%, mədən vergisində 3,4%, sair daxilolmalarda 16,3 dəfə artım qeydə alınmışdır. Yalnız torpaq vergisi 9,1% azalmışdır. Dövlət büdcəsinin xərclərinin tərkibində 2018-ci illə müqayisədə 2022-ci ildə iqtisadiyyata yönələn xərclərdə azalma, digər istiqamətlər üzrə artım qeydə alnmışdır (cədvəl 1).

Yuxarıda qeyd edilənlər təbii olaraq nəticəsini iqtisadi inkişafı xarakterizə edən göstəricilərdə büruzə verir. Əsas makroiqtisadi göstəricilərin inkişaf indeksinin təhlili göstərir ki, əvvəlki ilə nisbətən ümumi daxili məhsul 2018-ci ildə 1,5%, 2019-cu ildə 2,5%, 2021-ci ildə 5,6%, 2022-ci ildə 4,6% artmış, 2020-ci ildə 4,2% azalma qeydə alınmışdır (cədvəl 2).

İqtisadiyyatın tənzimlənməsinin maliyyə metodları

İqtisadiyyatın tənzimlənməsinin maliyyə metodları birbaşa və dolayı üsullar olaraq fərqləndirilir. Birbaşa üsullara büdcənin tənzimlənməsi üsulları daxildir. “Büdcə sisteminin vahidliyi tənzimləyici mədaxil mənbələrindən istifadə etmək, məqsədli büdcə fondları yaratmaq, maliyyə ehtiyatlarını müxtəlif səviyyəli büdcələr arasında bölüşdürmək vasitəsi ilə büdcələrin qarşılıqlı əlaqəsinə əsaslanır” [1]. Dövlət büdcəsi hesabına geniş təkrar istehsal xərclərini, qeyri-məhsuldar dövlət xərclərini, infrastrukturun inkişafını, elmi tədqiqatları, struktur siyasətinin həyata keçirilməsini və s. maliyyələşdirir. Dövlət dolayı üsullardan istifadə etməklə əmtəə və xidmət istehsalçılarının maliyyə imkanlarına və istehlakçı tələbinin həcminə təsir göstərir. Bu baxımdan vergi sistemi mühüm rol oynayır. Vergi dərəcələrini dəyişdirərək - müxtəlif gəlir növləri, vergi güzəştlərinin təmin edilməsi, vergidən azad minimum gəlirin azaldılması və s. dövlət davamlı gəlir əldə etməyə çalışır.

Büdcə tənzimlənməsinin forma və üsulları, onun iqtisadiyyata təsiri baxımından aşağıdakı istiqamətlərdə qruplaşdırılır:

- maliyyə və pul-kredit tənzimlənməsinin dolayı üsulları - vergi dərəcələrinin müəyyən edilməsini və vergi güzəştlərinin verilməsini özündə əks etdirən vergi siyasəti, amortizasiya normalarının müəyyən edilməsi və amortizasiya ayırmalarının indeksləşdirilməsini əhatə edən amortizasiya siyasəti, kredit siyasəti, ixrac-idxal gömrük rüsumlarını müəyyən edən gömrük siyasəti;

Cədvəl 1

Dövlət büdcəsinin gəlir və xərcləri, milyon manat [6]

Göstəricilər	2018	2019	2020	2021	2022	2018-ci illə müqayisədə 2022-ci ildə, %-lə
Gəlirlər-cəmi	22508,9	24218,1	24124, 0	25 427,0	29197, 8	129,7
Fiziki şəxslərin gəlir vergisi	995,9	952,1	1 130,0	1 150,0	1 485,0	149,1
Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi	2499,7	2546,0	2 267,7	2 144,0	5 290 ,0	2,1 dəfə
Torpaq vergisi	50,6	50,0	40,0	186,0	46 ,0	90,9
Əmlak vergisi	182,2	212,6	186,0	211,0	236 ,1	129,6
Əlavə dəyər vergisi	4287,6	5185,1	4 598,4	4710,0	5 718,7	133,4
Aksiz	728,6	854,7	936,4	1 059,0	1 276,8	175,2
Mədən vergisi	137,4	133,8	129,5	138,0	142, 02	103,4
Sair daxilolmalar	11,9	12,6	86,8	65, 4	193,7	16,3 dəfə
Xərclər-cəmi	22731,6	24425,9	27 492,2	28 543,0	32 303,8	142,1
İqtisadiyyata	7822,7	7961,5	5 832, 8	5 947,4	7 067,9	90,4
Təhsil	1966,6	2195,7	3 034,7	3 277,6	3 886,6	197,6
Səhiyyə	709,9	873,6	1 716,5	1 378,6	1 708,7	2,4 dəfə
Sosial müdafiə və sosial təminat	2150,7	2281,0	3 237,0	3 692,7	3 728,5	173,4
Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət	299,5	335,8	426,0	418,1	463,1	154,6
elm	117,8	122,3	187,3	151,8	204,9	173,9
Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq	1316,4	1505,1	1 936,7	2 092,8	2 482,2	188,6
qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının saxlanması	627,4	774,5	1 051,8	1 062,4	1 481,8	2,4 dəfə

Cədvəl 2

Əsas makroiqtisadi göstəricilərin indeksləri, əvvəlki ilə nisbətən, faizlə [6]

Göstəricilər	2018	2019	2020	2021	2022
Ümumi daxili məhsul	101,5	102,5	95,8	105,6	104,6
Əhalinin gəlirləri	108,0	106,9	98,2	102,6	120,5
Orta aylıq nominal əməkhaqqı	103,0	116,6	111,4	103,4	114,7
Dövlət büdcəsinin gəlirləri	136,3	107,6	101,9	107,0	116,2
Dövlət büdcəsinin xərcləri	129,2	107,5	108,1	103,8	116,9
Əhalinin banklardakı əmanətləri	110,8	103,1	94,7	113,0	127,1
İqtisadiyyata kredit qoyuluşları	110,7	117,5	95,0	117,8	117,9
İstehlak qiymətləri indeksi	102,3	102,6	102,8	106,7	113,9

- dövlətin birbaşa maliyyəsilə tənzimləmə üsulları - investisiyaların bölgüsü, subsidiyalar və s.;
- istehsal fəaliyyətinin tənzimlənməsi üsulları - dövlət ehtiyacları üçün məhsulların tədarükü, sifarişlər, kvota və lisenziyalar və s.;
- dövlət sahibkarlığı.

Araşdırmalar göstərir ki, iqtisadi tənzimləmə siyasətinin səmərəli həyata keçirilməsi üçün dövlətin iqtisadiyyata təsirinin bütün tədbirlərini və qarşılıqlı əlaqəsini təmin etmək vacibdir. Onlar dövlətin sosial-iqtisadi strategiyasını əks etdirən sənədlər paketində formalaşdırılmalı və ümumiləşdirilməlidir.

Büdcənin tənzimlənməsinin forma və üsulları

Büdcənin tənzimlənməsində müxtəlif forma və üsullardan istifadə olunur. Ümumiyyətlə, dövlətin maliyyə və tənzimləmə fəaliyyəti çoxsaylı üsullarla həyata keçirilir - pul-kredit siyasəti, vergi siyasəti, dövlət borcunun idarə edilməsi, xarici ticarət siyasəti, ixrac axınlarının lisenziyalaşdırılması, gömrük vergisi, idxalın məhdudlaşdırılmasının qeyri-tarif üsulları və s. Araşdırmalara əsaslanaraq dövlət tənzimlənməsinin inzibati təsir üsullarının kifayət qədər səmərəli olduğunu və onlardan istifadənin zərurətə çevrildiyini qeyd etmək olar. İnzibati-normativ, inzibati-nəzarət funksiyaları dövlət idarəşiliyinin tərkib hissəsini təşkil edir.

Hər bir ölkədə müdaxilə ölçülərinin spesifik xüsusiyyətləri mövcuddur. Büdcə tənzimlənməsi həm hüquqi, həm də qeyri-hüquqi formalarda həyata keçirilir. Hüquqi forma maddi resursların bölüşdürülməsi və səmərəli şəkildə istifadəsini nəzərdə tutur. Bu məqsədlə dövlət maliyyə hüquqi aktlarından istifadə edir: ayrı-ayrı büdcə növləri arasında xərclərin bölgüsü; büdcə sisteminin hər bir həlqəsi üçün gəlirinin müəyyən edilməsi; vergilərin müəyyən edilməsi; geri qaytarılmayan vəsait əsasında büdcənin balanslaşdırılması; büdcə krediti şəklində büdcələrarası kreditləşmə; büdcə xərclərinin azaldılması [Финансы, 2014].

Büdcə tənzimlənməsinin əsas məqsədi sabit və tənzimləyici gəlirlərin müəyyən edilməsidir. Sabit gəlir qanuna uyğun olaraq tam və ya sabit müəyyən olunmuş payla daimi və ya uzunmüddətli müvafiq büdcəyə daxil olan gəlirdir. Bunlar gəlir və xərclərin tarazlaşdırılması məqsədilə büdcədən faiz ayırmaları şəklində büdcəyə köçürülən gəlirlərdir. Göstərilən üsullar büdcənin balansına nail olmaq üçün kifayət etmədikdə, birbaşa maliyyə dəstəyinin göstərilməsi üsullarından – subsidiya və subvensiyalardan istifadə edilir. Subvensiya konkret bir sahəni maliyyələşdirmək üçün nəzərdə tutulur. Subvensiya müəyyən müddət ərzində fəaliyyət göstərdikdə və ondan vaxtında istifadə edilmədikdə və ya başqa məqsədlər üçün istifadə edildikdə, onu verən orqana qaytarılır. Subvensiyaların verilməsi və istifadəsi şərtləri pozulduqda, onların ayrılmasına xitam verilir.

Subsidiya büdcədən fiziki və ya hüquqi şəxslərə məqsədli xərclərin birgə maliyyələşdirilməsi şərtləri ilə verilir. Subsidiyanın subvensiya ilə ortaq cəhəti ondan ibarətdir ki, hər iki fond növü məqsədyönlü xarakter daşıyır, həmçinin onlar geri qaytarılmayan əsaslarla həyata keçirilir. Bununla belə, subsidiya müəyyən bir tədbirin və ya büdcə proqramının maliyyələşdirilməsində daha yüksək büdcənin iştirak payını ifadə edir.

Büdcə tənzimlənməsinin ənənəvi üsulları ilə yanaşı transfert ayrılır ki, bu da regional maliyyə dəstəyi fondundan aşağı ərazi büdcələrinə vəsaitlərin köçürülməsini əks etdirir. Bu fond yuxarı büdcəyə faktiki daxil olan gəlirdən faiz ayırmalarından formalaşır. Büdcə tənzimlənməsi prosesində büdcəyə vəsaitin verilməsi geri qaytarılmalı əsaslarla, yəni kreditləşmə yolu ilə həyata keçirilə bilər. Büdcə krediti büdcə xərclərinin maliyyələşdirilməsi formasıdır ki, bu da əvəzli əsaslarla vəsaitlərin verilməsini nəzərdə tutur. Qeyd etmək lazımdır ki, qanunvericiliklə kreditə əsaslanan büdcə tənzimlənməsi üsulları xüsusi əhəmiyyət kəsb edir.

Büdcə krediti fərqləndirici xüsusiyyətləri ilə seçilir. Belə ki, büdcə kreditləri tərəflərin qarşılıqlı razılığı ilə müqavilə əsasında verilir. Nəzərə almaq lazımdır ki, bu müqavilə mülki hüquq deyil. Büdcə ssudaları və büdcə kreditləri geri qaytarılma və kompensasiya şərtləri ilə verilir. Qrantlar, subvensiyalar və subsidiyalar geri alınmazlıq əsasında və pulsuz verilir. Büdcə ssudasından büdcənin tənzimlənməsi metodu kimi istifadəsi büdcənin icrası mərhələsində həyata keçirilir.

Nəticə

Ümumilikdə dövlətin həyata keçirdiyi tənzimləmə vasitələrinin əsası fiskal siyasət hesab olunur. Fiskal siyasət dövlət xərcləri və vergi ilə bağlı olan tənzimləmə sistemidir. Bu siyasət xeyli dərəcədə hökumət xərclərinin, yəni dövlət idarə və orqanlarının, institutlarının saxlanılması və s. dinamikasından asılıdır. Dövlət müəyyən dövrdə müvafiq vergiqoyma sistemini tətbiq etmək və ya onu təkmilləşdirmək, vergi dərəcəsini müəyyənləşdirmək, quruluş və formasını dəyişmək, vergi güzəştləri qoymaq, ləğv etmək və s. vasitələrdən istifadə edərək əsaslı vəsait qoyuluşunu stimullaşdırır və ya məhdudlaşdırır, həm də əhalinin həyat səviyyəsinin formalaşmasına təsir göstərir. Bazar münasibətləri şəraitində iqtisadiyyatın dövlət tənzimlənməsi probleminin tədqiqi bu sahə ilə bağlı nəzəri və praktiki əhəmiyyətə malik olan mühüm nəticələr əldə etməyə imkan verir. Beləliklə, dövlətin iqtisadiyyata müdaxiləsi, tənzimləmə prosesində iştirakı obyektiv olaraq müəyyən edilmiş hədlərə malikdir ki, bundan kənarda iqtisadi stimulların zəifləməsi və bütün təsərrüfat mexanizminin səmərəliliyinin azalması baş verə bilər. Beləliklə, maliyyə üsullarından geniş istifadə ictimai istehsalın strukturunun dövlətin tələb etdiyi istiqamətdə dəyişdirilməsi üçün potensial imkanlar yaradır.

ƏDƏBİYYAT

1. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu. [2 iyul 2002-ci il]
2. Государственные и муниципальные финансы: учебное пособие для бакалавров / Н.В.Уколова, Л. Н. Алайкина, Н. А. Новикова; ред. Н.В.Уколова. - Саратов: Буква, [2015. – 176 с.]
3. Капканщиков, Сергей Геннадьевич. Государственное регулирование экономики: [Текст] учебное пособие по спец. "Государственное и муниципальное управление"; рек. УМО / С.Г. Капканщиков. - 5-е изд., стер. - М.: Кнорус, [2013. - 520 с].
4. Финансы: учебник для студ. вузов по напр. подг. [080100] "Экономика" - бакалавр; рек. ФГБОУ ВПО "Гос. ун-т управления" / ред. Е. В. Маркина. - М.: Кнорус, [2014. - 432 с.]
5. www.stat.gov.az

Рашад Арзуман оглу Мустафаев
Докторант Азербайджанского Университета Кооперации
Электронная почта: resad_320_m@mail.ru

Финансовые методы регулирования экономического развития необходимость использования

Резюме

Целью исследования - является обеспечение баланса в развитии различных отраслей экономики в условиях новых реалий, что считается одним из приоритетов экономической политики государства. Финансовое регулирование имеет особое значение в реализации этой цели.

Методика исследования - Механизмами финансового регулирования являются бюджетный, налоговый, денежно-кредитный и др. относится к методам, средствам и инструментам ее регулирования. Участие государства в процессах регулирования экономического развития направлено, прежде всего, на формирование экономических стимулов**.**

Прикладная значимость исследования - Именно за счет использования финансового регулирования определяются возможности совершенствования структуры производства. Государственное регулирование экономики в условиях рыночной экономики осуществляется различными формами и методами на основе международного опыта. Как правило, количество и разнообразие методов и форм адаптируются к экономическим и социальным

условиям страны, географическим климатическим условиям, природным ресурсам, обычаям и традициям.

Результаты исследования – изучение проблемы государственного регулирования экономики в условиях рыночных отношений позволяет получить важные результаты теоретического и практического значения в данной области. Таким образом, широкое использование финансовых методов создает потенциальные возможности для изменения структуры общественного производства в требуемом государством направлении.

Оригинальность и научная новизна исследования - административные средства и инструменты государственного регулирования экономики не связаны с дополнительными финансовыми стимулами и финансовой поддержкой. Они основаны на силе государственной власти и включают полномочия упреждения, санкционирования и принуждения. Косвенные методы государственного регулирования в рыночной экономике затрагивают интересы субъектов экономической деятельности путем определения правил игры на рынке.

Ключевые слова: экономическое развитие, регулирование, денежно-кредитный, бюджет, налог, таможня, финансы.

Rashad Arzuman Mustafayev
PhD student of Azerbaijan Cooperation University

Financial methods in regulating economic development necessity of use

Summary

The aim of the research - It is to ensure balance in the development of various sectors of the economy in the conditions of new realities, which is considered one of the priorities of the state's economic policy. Financial regulation is of particular importance in the realization of this goal.

Research methodology - Financial regulation mechanisms are budget, tax, money-credit, etc. refers to the methods, means and tools of its regulation. The state's participation in processes to regulate economic development is primarily aimed at the formation of economic incentives.

Application significance of the research - It is through the use of financial regulation that opportunities for improving the structure of production are determined. State regulation of the economy in the market economy is carried out through various forms and methods based on international experience. As a rule, the number and variety of methods and forms are adapted to the country's economic and social conditions, geographical climate conditions, natural resources, and customs and traditions.

Results of the study – the study of the problem of state regulation of the economy in the conditions of market relations allows obtaining important results of theoretical and practical importance in this area. Thus, the widespread use of financial methods creates potential opportunities for changing the structure of public production in the direction required by the state.

The originality and scientific novelty of the research - the administrative means and tools of the state regulation of the economy are not related to additional financial incentives and financial support. They are based on the power of state power - they include the powers of preemption, authorization, and coercion. Indirect methods of state regulation in the market economy affect the interests of subjects engaged in economic activity by determining the rules of the game in the market

Key words: economic development, regulation, money-credit, budget, tax, customs, finance.